# Ulu Öndər Heydər Əliyev Elçin haqqında



"Elçin bizim böyük yazıçılarımızdan biridir".

* * *

"Elçin bizim çox istedadlı yazıçımızdır, gənc vaxtlarından çox dəyərli əsərlər yazıbdır. Amma son illər o, eyni zamanda teatr üçün də əsərlər yazıbdır. Deyəsən, keçmişdə bu, olmamışdı. Çünki bu məsələ ilə əsasən onun atası məşğul olurdu. Atası rəhmətlik İlyas Əfəndiyev bu işlərlə çox uğurla məşğul olurdu və çox da gözəl əsərlər yaratmışdı. Elçin isə daha çox nəsr əsərləri yazırdı və dəyərli əsərlər yaratmışdır. Ona görə də gənc vaxtlarından 60-70-ci illərdə gənc yazıçılar, gənc şairlər sırasında idi. Hətta xatirimdədir ki, Yazıçılar İttifaqının ən gənc katibi Elçin oldu, o seçildi. Amma son zamanlar görürəm ki, o, eyni zamanda pyeslər də yazır və onlar bizim Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulur, uğurla göstərilir. Beləliklə də bizim teatr həyatı yaşayır".

* * *

"Elçinin xalqımızın tarixi, taleyi və bədii irsi ilə bağlı olan uzaq və yaxın keçmişimizin mənzərəsini canlandıran əsərləri XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur".

* * *

"Heyf ki, mən bu ordeni ("Şöhrət" ordeni) İlyas Əfəndiyevin özünə təqdim edə bilmədim, çox təəssüf edirəm... Ancaq, eyni zamanda mən məmnunam ki, Elçin, sən - oğlu, onun yaradıcılığını davam etdirirsən. Həm oğul kimi, həm də Azərbaycan mədəniyyətinin xadimi kimi, sənin İlyas Əfəndiyevə məxsus olan ordeni almağa tam hüququn var".

* * *

"İki-üç gün bundan öncə mənə bir kitab göstərdilər. Baxıram, kitabda Elçinlə, hansısa bir şairlə, daha kiminləsə mənim də şəklim var. Elçin o vaxt gənc idi, qıvrım saçları vardı".

* * *

**"Heydər Əliyev:** - Elçin bizim çox istedadlı yazıçımızdır, gənc vaxtlarından çox dəyərli əsərlər yazıbdır. Amma son illər o, eyni zamanda teatr üçün də əsərlər yazıbdır. Deyəsən, keçmişdə bu olmamışdı. Çünki bu məsələ ilə əsasən sənin atan məşğul olurdu.

**Elçin:** - Bəli, cənab Prezident.

**Heydər Əliyev:** - Atan, rəhmətlik İlyas Əfəndiyev bu işlərlə çox uğurla məşğul olurdu və çox da gözəl əsərlər yaratmışdı. Elçin isə daha çox nəsr əsərləri yazırdı və dəyərli əsərlər yaratmışdır".

* * *

"Elçin yaradıcılığının çoxşaxəli olması ilə seçilən, müxtəlif janrlarda uğurla işləməyi bacaran qələm sahiblərindəndir. O, ictimai fəaliyyəti ilə müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın mənəvi birlik və həmrəyliyi işinə yüksək dərəcədə xidmət etmişdir".